# Onun "danışan" heykəlləri

**Güntay Hüseynli Şabran şəhərində rəssam ailəsində doğulmasına baxmayaraq, kiçik yaşlarında incəsənətə elə də maraq göstərməyib. Amma tədricən daxilində böyük incəsənət sevgisi yaranıb.**

Beləliklə, ona maraqlı gələn və diqqətini cəlb edən saheni – memarlığı seçir. Güntayın atası, tanınmış rəssamımız Vaqif Ucatay, ona Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının nəzdində – Əzim Əzimzadə adına İncəsənət kollecində "Heykəltəraşlıq" ixtisası üzrə oxumağı təklif edir.

2011-ci ildə orta məktəbi bitirdikdən sonra həmin kollecə daxil olur. Buradakı təhsil illərində heykəltəraşlıq onu özünə o qədər bağlayır ki, artıq memarlıq haqqında düşünmür. O, həyatını heykəltəraşlığa həsr etməyə, bir-birindən maraqlı mövzuları əhatə edən incəsənət nümunələri yaratmağa qərar verir. Təbii ki, bu yolda onun ilk və ən böyük dəstəkçisi elə atası olur.

Uğurlu tələbəlik yolu keçən gənc rəssam 2015-ci ildə diplom alır və hərbi xidmətə yollanır. Vətən borcunu yerinə yetirdikdən sonra sevimli sahədə çalışmağa başlayır. İncəsənət onun üçün ayrı yaşaya bilməyəcəyi nəfəsə çevrilir.

İstedadı ilə yaşıdları arasında seçilən, incəsənətə olan sevgisi günü-gündən artan gənc heykəltəraş Güntay Hüseynli 2018-ci ildən təhsilini Azərbaycan Dövlət Rəssamlıq Akademiyasında "Heykəltəraşlıq" ixtisası üzrə davam etdirir. Akademiyada təhsil aldığı dövrdə uğurlara imza atır, müxtəlif sərgi və incəsənət tədbirlərində iştirak edir, diplom və mükafatlara layiq görülür. Xalq rəssamı, professor Natiq Əliyev, prorektor Fuad Salayev, Rəcəb Müslümov, heykəltəraş Nurlan Məmmədov kimi müəllimlərdən professional dərslər alır.

O, 2022-ci ildə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasındakı bakalavr təhsilini başa vuraraq diplom müdafiəsi üçün mövzu axtarışına çıxır. Seçdiyi mövzu o zamanki ruh halına uyğun olan "Yaşam iradəsi" adlandırdığı əsər olur. Əsərdə fiziki və ruhən çökmüş, uçurumun lap kənarında duran, amma hələ də həyata sevgi ilə baxan düşüncəli insanın həyat iradəsindən bəhs edilir. Bu adam şüurlu olaraq anlayır ki, həyatda baş verən bütün çətinliklərə baxmayaraq, hər şeyə yenidən başlamaq lazımdır. Güntay Hüseynli bəhs edilən əsəri hazırladıqdan sonra, bir gün təsadüfən Artur Şopenhauerin eyniadlı teoriyası ilə qarşılaşır. Həmin nəzəriyyədə bəhs edilir ki, "Bu, həyatda qalmaq instikt deyil, sırf yaşam iradəsidir". Beləliklə, əsərin adı formalaşır.

Uğurlu keçən diplom müdafiəsi gənc heykəltəraşı daha da ruhlandırır. Hazırladığı heykəl bütün müəllimləri tərəfindən bəyənilir və Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının həyətində qoyulmasına qərar verilir. Bu da gənc heykəltəraşın yüksək yaradıcılıq istedadının əsas göstəricisidir.

Müxtəlif mövzulu kompozisiyalar hazırlamağa üstünlük verən gənc heykəltəraş, demək olar ki, bütün digər əsərlərində də simvolik mənalardan istifadə edir. Onun "Çərxi-fələk", "Çərçivədən kənar", "Statik", "Elastik çərçivə", "Potensial", "Cəhd", "Həyat", "Öpüş", "Zaman körpüsü", "Yorğun", "Eqo", "Beyin gülü", "Başbilən", "Pəncərə dünya", "Zəriflik abidəsi" kimi bir-birindən fərqli olan heykəlləri buna misaldır.



Dünyaca məşhur olan rəssam Mikelancelonun səsləndirdiyi belə bir fikir var: "Bir heykəli düzəldin, sonra onu hündür bir yerdən aşağı atın, qoyun, qırılsın. Qırıntılardan nə qalacaqsa, sizin yaratdığınız əsər, bax, odur". Əlbəttə, bu, məcazi bir fikirdir. Güntay da öz yaradıcılığında bu yanaşmanı əsas tutaraq daha çox minimalizmə üstünlük verir. O, hazırladığı bir çox əsəri mümkün qədər ixtisara salaraq, əlavə detallardan azad edərək izah etmək istədiyi fikri tək fiqurla tamaşaçıya çatdırmağı əsas məqsəd olaraq görür. Azdan çox şey yaratmaq kimi.

Gənc Güntay Vətən müharibəsi zamanı torpaq uğrunda canından keçərək şəhid olmuş hərbçilərin, əsgərlərin xatirə lövhələri, barelyefləri, portretlərini hazırlayaraq xatirələrini əbədiləşdirən heykəltəraşlardan biridir. O, qürur keçirir ki, Qubada, İspik kənd orta məktəbinin qarşısında ucaldılan, həmin məktəbin adını daşıdığı şəhid Neman Dadaşovun büstü, Kürdəmirdə şəhid Ziyadxan Əliyevin portreti, Şabran rayonunda şəhid Ürfan Orucovun xatirə lövhəsi, Stalinqrad qəhrəmanı Fətulla Həmidovun büstünün müəllifidir. Həmçinin Arxangelskdə ucaldılan Fərman Salmanovun, Müslüm Maqomayevin barelyefləri və Heydər Əliyevin büstü də onun yaradıcılığının məhsullarıdır.

Heykəltəraşın müharibə dövründə işlədiyi, yanaşma tərzi və mövzusu ilə seçilən ən təsirli əsərlərindən biri "Atalar və oğullar" adlı əsəridir. İkifiqurlu kompozisiyadan ibarət olan bu əsərdə hər ikisi eyni silahı tutan qəmgin ata ilə əyilməz, başını dik saxlayan oğul obrazını canlandırıb.

Güntay Hüseynli təşkil olunmuş AXIN – Gənc rəssamların qrup sərgisində, bir çox yerli və xarici sərgilərdə uğurla iştirak edib. Hazırda isə öz emalatxanasında heykəltəraş kimi yaradıcılığa davam edərək, yeni əsərlərə ruh verir.

***Ziyarət CABAROVA,***
***sənətşünas, Azərbaycan Dövlət Rəsm Qalereyasının böyük elmi işçisi***

Xalq qəzeti .- 2023.- 18 yanvar.- S.11.